**UOT:338.43, 330.322.21, 631.95 DOI:https://doi.org/10.30546/19023.2026.01.048.136**

# KƏND TƏSƏRRÜFATINDA DAYANIQLI İNKİŞAFIN DƏSTƏKLƏNMƏSİNİN İNVESTİSİYA MEXANİZMLƏRİ

**Murad Əli Oğlu Hacıyev**
*Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı*
***ORCID: 0009-0005-2175-6039***
***e-mail: murad.haciyev.01@list.ru***

***Xülasə***

*Müasir şəraitdə kənd təsərrüfatının dayanıqlı inkişaf məsələlərinin həlli bu sektora investisiya qoyuluşlarının prioritet hədəflərindən birini təşkil edir. Məqalədə dayanıqlı inkişafın investisiyalarla dəstəklənməsinin məqsədləri və əsas istiqamətlərinə baxılır. Dayanıqlı inkişaf məqsədləri üçün investisiyaların cəlb edilməsi mexanizmlərinin təkmilləşdirilməsi məsələləri müzakirə edilir. İnvestisiyaların aqrar sahədə torpaq və su resurslarından səmərəli istifadə olunması, iqlim dəyişikliyinin zərərli təsirlərinin ixtisar olunması ilə bağlı tədbirlərin həyata keçirilməsinə effektiv surətdə yönəldilməsinə dair tövsiyələr irəli sürülür.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, dayanıqlı inkişaf, investisiya, investisiya qoyuluşlarının stimullaşdırılması, stimullaşdırma mexanizmi*

## Giriş

Kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi - torpaq və su resurslarının səmərəli istifadəsi və bu əsasda uzunmüddətli dövrlərdə ərzaq təhlükəsizliyinə nail olunması, bioloji müxtəlifliyin qorunması, qlobal iqlim dəyişikliyinin mənfi nəticələrinin zəiflədilməsi bu sahəyə müvafiq istiqamətlər üzrə investisiya qoyuluşlarının həyata keçirilməsi ilə bağlıdır. Sözügedən istiqamətlərdə zəruri həcmlərdə investisiyaların yatırılması BMT tərəfindən irəli sürülən Dayanıqlı İnkişaf Məqsədlərində özünə yer alan yoxsulluğa, habelə aclığa son qoyulmasının, iqlim dəyişikliyinə qarşı mübarizənin, torpaq ekosisteminin mühafizəsinə əməl edilməsinin vacib şərtlərindən biri kimi çıxış edir [6].

Azərbaycanda dövlət müstəqilliyi şəraitində aqrar sahənin inkişafı üzrə həyata keçirilən strategiyalar çərçivəsində kənd təsərrüfatının dayanıqlı inkişafına əsas istiqamətlər üzrə iri həcmli investisiyalar yatırılmışdır. Həmin investisiyalar ilk növbədə torpaqların deqradasiyasının, tənzimləyici funksiyalarının zəifləməsinin qarşısının alınmasına imkanlar yaradılmasına yönəldilmişdir. Bu istiqamətdə irriqasiya sistemlərinin, o cümlədən, kollektor-drenaj şəbəkələrinin təmiri və genişləndirilməsi işləri həyata keçirilmişdir. İnvestisiyalar həmçinin innovativ suvarma texnologiyalarının tətbiqinə yönəldilmişdir. Belə texnologiyalar su resurslarının sərfində israfçılığı aradan qaldırmaqla yanaşı, torpaqlarda suvarma ilə bağlı şoranlaşma və eroziyanın qarşısını almağa,

gübrə və dərmanları eyni həcmdə, vahid qaydada torpağa verməyə kömək edir. Göstərilənlərlə yanaşı, ayrı-ayrı ərazilərdə meşə yaşıllaşdırma işləri aparılmışdır ki, bu da həmin sahələrdə torpaqların eroziyası proseslərinin qarşısının alınmasına kömək edir.

Eyni zamanda hazırda ölkənin kənd təsərrüfatında torpaq və su resurslarından dayanıqlı istifadə metodlarının tətbiqi miqyasları zəruri tələblərə uyğun səviyyədə deyildir, bir sıra dayanıqlı metodların tətbiqinə isə başlanmamışdır. Kənd təsərrüfatı torpaqlarının deqradasiyası proseslərinin qarşısı tam alınmayıb. Deqradasiyaya uğramış torpaqların sahəsi böyükdür. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə kənd təsərrüfatı təyinatlı torpaqların 1 milyon ha-dan artığı müxtəlif dərəcədə deqradasiya hallarına uğramış vəziyyətdədir. Belə ki, suvarılan torpaqlarda şoranlaşmış sahələrin payı yüksəkdir, yay və qış otlaqları torpaqlarının böyük hissəsi isə eroziyaya uğrayıb [26].

Qeyd edilənlərlə əlaqədar, müasir şəraitdə ölkənin kənd təsərrüfatına zəruri həcmlərdə investisiya qoyuluşlarının həyata keçirilməsi və həmin investisiyaların prioritet istiqamətlərə yönəldilməsi mexanizmlərinin təkmilləşdirilməsi məsələlərinin araşdırılması böyük maraq kəsb edir.

## Dayanıqlı inkişafın investisiyalarla dəstəklənməsinin məqsədləri və əsas istiqamətləri

Kənd təsərrüfatının dayanıqlı inkişafı geniş əhatəli proses kimi çıxış edir. Bu proses daxilində bilavasitə sahəyə investisiya qoyuluşları da şaxəli məqsədlərin reallaşdırılmasına yönəldilir. Həmin məqsədlərin hər birinə uyğun əsas kapitala investisiya qoyuluşlarının konkret istiqamətləri ayrılır ***(cədvəl 1)***.

**Cədvəl 1.Kənd təsərrüfatında dayanıqlı inkişafa investisiya qoyuluşlarının əsas hədəfləri və istiqamətləri**

| | İnvestisiya qoyuluşunun hədəfləri | İnvestisiya qoyuluşunun istiqaməti |
|---|---|---|
| 1 | Kənd təsərrüfatı torpaqlarının münbitliyinin bərpa olunması | Torpaqların rekultivasiyasının həyata keçirilməsi;<br>Torpaqların yuyulması və əsaslı yaxşılaşdırılması |
| 2 | Torpaqların münbitliyinin mühafizəsi və artırılması | Suvarılma sistemlərinin modernləşdirilməsi;<br>Tarlaqoruyucu meşə zolaqlarının salınması |
| 3 | Su resurslarının səmərəli istifadəsi | Müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi;<br>Magistral və təsərrüfatlararası suvarma kanallarının modernləşdirilməsi;<br>Suvarma sistemlərinin idarə olunmasının modernləşdirilməsi |
| 4 | Biomüxtəlifliyin qorunması və ətraf mühitin çirklənməsinin qarşısının alınması | Drenaj suyunun təmizlənməsi texnologiyalarının tətbiqi;<br>Drenaj-kollektor sisteminin modernləşdirilməsi |
| 5 | İqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılması | Heyvandarlıqda məhsuldarlığın yüksəldilməsinə investisiya qoyuluşlarının artırılması;<br>Torpaqlardan istilik effekti yaradan qazların (GHG) emissiyasının azaldılmasına imkan yaradan texnologiyaların tətbiqi;<br>Yanacaq sərfinə qənaət edən texnikaların tətbiqi |
| 6 | İstehsal tullantılarının dayanıqlı istifadəsi | Tullantılardan bioenerji istehsalının həyata keçirilməsi |
| 7 | Ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalının genişləndirilməsi | Ekoloji təmiz məhsulların istehsalının, qablaşdırılmasının və satışa çıxarılmasının təşkili üçün bazanın formalaşdırılması |

***Mənbə:** müəllif tərəfindən hazırlanmışdır*

Problemin həllində investisiya amili aspekti nəzərə alınmaqla kənd təsərrüfatının dayanıqlı inkişafının təmin olunması ilə bağlı əsas hədəflər sırasında torpaq, habelə su resurslarının effektiv istifadəsi mühüm yer tutur. İqtisad elmləri doktoru Ramil Hüseynin göstərdiyi kimi, "mövcud suvarma sistemlərinin yaxşılaşdırılması, su itkisini azaltmaq və suvarma səmərəliliyini artırmaq üçün investisiyaların ayrılmasının təmin edilməsi dayanıqlı kənd təsərrüfatına kömək etməklə yanaşı, ətraf mühitə müsbət töhvə verə bilər" [9].

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında istər torpaq və istərsə də su resurslarından səmərəli istifadəyə investisiya qoyuluşları əslində çoxhədəflidir. Belə ki, həmin istiqamətlərə yönəldilən investisiyalar öz növbəsində həm də biomüxtəlifliyin qorunmasına və ətraf mühitin çirklənməsinin qarşısının alınması ilə bağlı məsələlərin həllinə xidmət edir.

Kənd təsərrüfatının dayanıqlı inkişafına investisiya qoyuluşlarında bu sahənin iqlim dəyişiklərinə mənfi təsirlərinin zəiflədilməsinə yönələn layihələr önəmli yer tutur. Məlumdur ki, aqrar sahə GHG emissiyasında əhəmiyyətli paya malikdir. Belə ki, rəsmi statistika məlumatlarına əsasən Azərbaycanda sahələr üzrə GHG atılmasında (milyon ton $CO_2$ ekvivalentində) kənd təsərrüfatının payının 2021-2023-cü illərin orta göstəricisi 13.3% təşkil etmişdir [3].

Kənd təsərrüfatında yaradılan GHG-nin əsas hissəsi heyvandarlığın payına düşür. FAO-nun qiymətləndirməsinə görə 2023-cü ildə ölkəmizin kənd təsərrüfatında həmin göstərici sahə üzrə ümumi emissiyanın 2/3-ə yaxın hissəsini təşkil edir ***(Diaqram )***.

**Diaqram. Azərbaycanın kənd təsərrüfatında GHG emissiyasının strukturu (%-lə)**




***Mənbə:*** FAOSTAT-ın məlumatları [18] əsasında tərtib edilmişdir.

Diaqramın məlumatlarına əsasən, kənd təsərrüfatında GHG emissiyasının ixtisar olunması və bununla da qlobal iqlim dəyişikliyinin mənfi təsirinin azaldılmasının ilk növbədə heyvanların sayı və həm də heyvandarlıqda yemləmə və saxlanılma texnologiyalarının xarakteri ilə əlaqədar olduğunu

demək mümkündür. Bununla bağlı, müvafiq istiqamətdə investisiya qoyuluşlarının da heyvandarlıqda saxlama şəraitinin və məhsuldarlığın yüksəldilməsinə yönəldilməsinə ehtiyac yaranır.

Kənd təsərrüfatında GHG emissiyasında əhəmiyyətli yet tutan bitkiçilikdən yaranan qazların həcminə torpaq işlənilməsi metodları, suvarma texnologiyaları və torpağın şumlanması texnologiyaları təsir göstərir. Bununla bağlı torpaqlardan GHG emissiyasının azaldılmasına imkan yaradan texnologiyaların tətbiqinə investisiya qoyuluşları önəmli rola malik olur. Bundan əlavə, Diaqram 1-dən göründüyü kimi, kənd təsərrüfatında texnika tətbiqi ilə əlaqədar yanacaq-enerji resurslarının sərfi də GHG emissiyasında xeyli yer tutur. Buna uyğun olaraq, həmin resursların sərfinin azaldılmasına imkan verən investisiyalar da dayanıqlı inkişafın təmin edilməsi sırasında özünə yer alır.

Kənd təsərrüfatı istehsalının tullantıları kimi yaranan biokütlənin bir qismi bərpa olunan enerji mənbələri kimi çıxış edir. Bu mənbələrdən istifadə olunmaqla elektrik enerjisi istehsalı üçün müvafiq texnologiyalar hazırlanmışdır. Həmin texnologiyaların tətbiqi ətraf mühitin tullantılar vasitəsilə çirklənməsinin qarşısını almaqla yanaşı, təmiz enerji əldə etməyə də imkan verir. FAO mütəxəssislərinin fikrincə, bərpa olunan enerji mənbəyi olaraq bioenerji aqro-ərzaq sistemlərində fermalarda və ya akvakultura əməliyyatlarında istifadə üçün istilik və ya elektrik enerjisi istehsal etmək məqsədilə alternativ enerji kimi istifadə edilə bilər. Artıq enerji istehsal olunarsa, əlavə gəlir əldə etmək məqsədilə satıla bilər. Bu cür fəaliyyətlər fermerlər, torpaq sahibləri, kiçik sənaye müəssisələri və kənd icmaları üçün fayda gətirə bilər [15].

Aqrar sahənin dayanıqlı inkişafı hədəfləri sırasında ekoloji təmiz kənd təsərrüfatının təşkili də önəmli yer tutur. Ekoloji təmiz kənd təsərrüfatının inkişafı yalnız ekoloji cəhətdən təmiz, təhlükəsiz məhsullarının istehsalı, emalı və satışına yönəlməyib. Ekoloji təmiz kənd təsərrüfatı əslində zəruri investisiya qoyuluşları əsasında aqrar sahədə dayanıqlı inkişaf tələblərinə uyğun geniş əhatəli vəzifələrin yerinə yetirilməsini özündə ehtiva edir.

**Dayanıqlı inkişaf məqsədləri üçün investisiyaların cəlb edilməsi mexanizmlərinin təkmilləşdirilməsi**

Azərbaycan Respublikasının dövlət müstəqilliyi şəraitində ölkənin kənd təsərrüfatının dayanıqlı inkişafına investisiyaların cəlb edilməsi sahəsində qanunvericilik əsasları formalaşdırılmışdır. Müvafiq qanunvericilik aktlarında aqrar sahədə torpaq və su resurslarından səmərəli istifadə edilməsi məsələlərinin həllinə dövlət tərəfindən investisiyaların ayrılması, habelə qeyri-dövlət subyektlərin sözügedən məqsədlərə investisiya qoyuluşlarının stimullaşdırılmasına dair müddəalar təsbit olunmuşdur. Eyni zamanda sosial-iqtisadi inkişafa dair qəbul olunan strategiyalar və dövlət proqramları çərçivəsində kənd təsərrüfatının investisiya qoyuluşları əsasında dayanıqlı inkişafının təmin olunması üzrə tədbirlər nəzərdə tutulmuşdur. Bu istiqamətdə 2000-ci illərdə reallaşdırılan regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının, habelə ərzaq təhlükəsizliyinə dair dövlət Proqramının xüsusi rolu olmuşdur. Sözügedən Dövlət Proqramlarında kənd təsərrüfatı torpaqlarının və su ehtiyatlarının dayanıqlı inkişaf prinsiplərinə uyğun istifadəsi məqsədilə:

- torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması, o cümlədən meliorasiya təminatı sahəsində tədbirlər həyata keçirilmiş;
- suvarma suyundan səmərəli istifadə ilə əlaqədar magistiral kanalların, eləcə də paylayıcı kanallar yenidənqurulmuş, habelə yeni kanalların tikintisi aparılmışdır;

➢ torpaqların su təminatının yaxşılaşdırılması üçün yeni su anbarlarının tikilməsi, artezian quyularının qazılması təmin olunmuşdur.

Ümumilikdə "4,2 min kilometr suvarma kanallarının tikintisi, bərpası və yenidən qurulması işləri aparılmış, Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları tikilmiş, 413 min hektar torpaq sahələrinin su təminatı yaxşılaşdırılmış, 2285 subartezian quyusu qazılmışdır" [5]. Meliorasiya və suvarma sistemlərinin bərpası və inkişafına dövlət büdcəsinin və Dövlət Neft Fondunun vəsaitləri ilə yanaşı Beynəlxalq Maliyyə Qurumlarının ayırdıqları vəsaitlər də yönəldilmişdir. "Dünya Bankı, İslam İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa Birliyi və digər investorlar tərəfindən ayrılan vəsait tikintisi yarımçıq qalmış ən mühüm obyektlərin, Baş Mil-Muğan kollektorunun, Naxçıvan MR-də Vayxır su anbarının tikintisinə, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına yönəldilirdi [13].

Eyni zamanda, ölkədə torpaq və su resurslarından dayanıqlı istifadə sahəsində mövcud problemlərin kompleksli həllinin təmin olunması məqsədilə bu sahədə proqram-məqsədli idarəetmənin daha da təkmilləşdirilməsinə ehtiyac vardır. Həmin istiqamətdə özündə müvafiq məqsəd üçün investisiya cəlbinə dair tədbirləri də əhatə edən xüsusi dövlət proqramlarının hazırlanıb həyata keçirilməsi məqsədəuyğun hesab edilir. Sözügedən proqramlar hazırda orta müddətli dövrlər üzrə hazırlanan Sosial-iqtisadi İnkişaf Strategiyaları çərçivəsində reallaşdırıla bilər. Qeyd edək ki, belə bir təcrübənin tətbiqinə qüvvədə olan qanunvericilik mexanizmləri də imkan yaradır. Belə ki, Torpaqların münbitliyi haqqında Azərbaycan Respublikası Qanununa uyğun olaraq, ölkədə torpaqların münbitliyinin təmin olunması üçün məqsədli dövlət, regional və yerli proqramlar hazırlanıb və həyata keçirilə bilər. Lakin, hələlik belə məqsədli proqramlar hazırlanması təcrübəsi tətbiq olunmamışdır.

Məqsədli dövlət proqramının hazırlanması və təsdiqi kənd təsərrüfatı torpaqlarının münbitliyinin mühafizəsi, artırılması və bərpasının təmin olunması üzrə prioritet məsələlərin zəruri resursları cəlb etməklə həllinə imkan verə biləcəkdir.

Məqsədli dövlət proqramı çərçivəsində torpaq resurslarının dayanıqlı inkişafına investisiyaların yönəldilməsində prioritet istiqamətlər kimi aşağıdakılar qəbul oluna bilər:

*Münbitliyi itirilmiş torpaq sahələrinin təsərrüfat dövriyyəsindən müvəqqəti çıxarılması, konservasiya edilməsi, habelə onların münbitliyinin bərpası və artırılmasına dair layihələrin hazırlanması və icrası.* Həmin istiqamətdə gələcəkdə konservasiya olunmuş əkin torpaqlarının münbitliyinin bərpası üzrə layihələrin hazırlanması və həyata keçirilməsi ilə yanaşı, münbitliyi itirilmiş yay və qiş otlaqlarının, örüş sahələrinin bərpası üzrə, habelə əhəmiyyətli dərəcədə deqradasiya olunmuş suvarılan torpaqlarda meliorasiyanın aparılmasına dair layihələrin reallaşdırılması zəruridir. Bununla bağlı müvafiq mexanizmlərin formalaşdırılması da nəzərdə tutulmalıdır. Kənd təsərrüfatı torpaqlarının bərpası və təsərrüfat dövriyyəsinə qaytarılması məqsədilə konservasiya olunmuş torpaqların rekultivasiyası qaydalarını tənzimləyən qanunvericilik aktlarının layihələrinin hazırlanmasına ehtiyac vardır.

*Kənd təsərrüfatı torpaqlarının dayanıqlı istifadə metodlarının tətbiqi.* Kənd təsərrüfatında torpaqların münbitliyinin saxlanılması, artırılması və deqradasiyanın qarşısının alınması, habelə ətraf mühitə zərərli təsirlərin azaldılmasına imkan verən istehsal metodlarının tətbiqi üzrə layihələrə investisiya qoyuluşlarına üstünlük verilməsi məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, müasir şəraitdə belə yanaşma aqrar sahədə genişmiqyaslı suvarmanın həyata keçirildiyi ölkələrdə tətbiq

olunur. Belə ki, suvarma əkinçiliyinin üstünlük təşkil etdiyi Avropa ölkələrdə irriqasiya sistemlərinin modernləşdirilməsinə investisiya qoyuluşları aqrar sahədə investisiya siyasətinin prioritet istiqamətləri kimi müəyyən edilir.

Ölkəmizdə sözügedən istiqamətdə ayrı-ayrı məhsullar üzrə və müxtəlif təbii-iqlim zonalarında torpağın minimum və sıfır işlənilməsi texnologiyasının tətbiqi imkanlarının və ümumi səmərəliliyinin müəyyən olunmasına dair tədqiqatların aparılması və müvafiq tövsiyələrin hazırlanması üzrə layihələrə, habelə kənd təsərrüfatında torpaqqoruyucu və enerji qoruyucu texnologiyaların geniş tətbiqinin təmin olunması üçün istehsalçıların zəruri çeşitdə və miqdarda texnikalarla təmin olunması üzrə layihələrə üstünlük verilə bilər. Həmin layihələrdə sahənin innovativ inkişaf strategiyasının sürətləndirilməsi çərçivəsində tədbirlərin reallaşdırılması vacib hesab edilir. Müvafiq yönümdə konkret vasitələrin seçilməsi barədə qərarların qəbulu zamanı müasir dünya təcrübələrinə diqqət yetirilməsi məqsədəuyğun hesab olunur. Bununla bağlı qeyd etmək lazımdır ki, ABŞ-da torpağın sıfır işlənilməsi (“no-till”) sisteminin fermerlər tərəfindən tətbiqi ilə bağlı investisiya xərclərinin maliyyələşdirilməsinə kömək tədbirləri tətbiq olunur [22].

Litvada torpağın sıfır işlənilməsi sisteminin tətbiqinə investisiyaların maliyyələşdirilməsinə kömək bununla bağlı yaradılmış xüsusi fond vasitəsilə həyata keçirilir.

*Kənd təsərrüfatı təyinatlı torpaqların dayanıqlı istifadə imkanlarını genişləndirən konsolidasiya layihələrinin hazırlanması və həyata keçirilməsi.* Ölkədə KTT-ın yüksək səviyyədə parselləşməsi və fraqmentləşməsinin onların dayanıqlı istifadəsinə əngəl yaradan amillərdən biri olması nəzərə alınaraq, konsolidasiyanın həyata keçirilməsi istiqamətində tədbirlər görülməsi vacib hesab edilir. Bununla əlaqədar xüsusilə, müvafiq investisiya layihələri üzrə aparılan və əkin sahələrinin daha səmərəli forma və ölçülərinin təmin olunması və irriqasiya və drenaj infrastrukturunun əlverişli qurulmasına imkan verən konsolidasiya layihələrinin reallaşdırılmasına üstünlük verilməsi məqsədəuyğundur. Eyni zamanda konsolidasiya layihələrinin həyata keçirilməsinin müvafiq torpaq sahəsinin yerləşdiyi ərazi üzrə “Kənd təsərrüfatı təyinatlı torpaqların istifadəsi üzrə Planlar”a və ya xüsusi hallarda, “Kənd təsərrüfatı təyinatlı torpaqların istifadəsi üzrə Proyektlər”ə uyğun olaraq təşkil edilməsi məsələsinə baxıla bilər. Xarici ölkələrdə, o cümlədən Türkiyə təcrübəsində sözügedən Planlar kənd təsərrüfatı təyinatlı torpaqların fiziki, kimyəvi və bioloji özəlliklərini nəzərə almaqla hazırlanır və fermerlərə ödənişsiz olaraq təqdim edilir. Planlarda müəyyən olunmuş tələblərə əməl edilməsi ərazi üzrə torpaq sahibləri və istifadəçiləri üçün məcburidir.

Kənd təsərrüfatının dayanıqlı inkişafına investisiya cəlbinin genişləndirilməsində mühüm vasitələrdən biri də bu sahədə dövlət-özəl tərəfdaşlığı mexanizminin istifadəsidir. Dövlət-özəl tərəfdaşlığı inkişaf məqsədlərinin reallaşdırılmasına daha çox investisiya qoyuluşları üçün dövlətlə yanaşı qeyri-dövlət sektorunun resurslarını da səfərbər etmək üçün mövcud imkanlardan istifadə etməyə imkan yaradır. Sözügedən mexanizmin tətbiqi investisiya qoyuluşları ilə bağlı riskləri səmərəli bölüşdürməklə yanaşı, həm də dayanıqlı inkişaf layihələrinin həyata keçirilməsində qabaqcıl texnologiyaların tətbiqini sürətləndirməyə yol açır. Bununla əlaqədar, investisiya cəlbinin genişlənməsi bir qayda olaraq kənd təsərrüfatı istehsalında məhsuldarlığın yüksəldilməsi və fermerlərin gəlirlərinin artması ilə müşayiət olunur.

Müasir dövrdə aqrar sahədə dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılmasına investisiyaların cəlb edilməsində dövlət və özəl sektorun əməkdaşlığı suvarma infrastrukturunun yaradılması və idarə edilməsi, o cümlədən qənaətcil suvarma texnologiyaların tətbiqi, torpaqların meliorativ

vəziyyətinin yaxşılaşdırılması, iqlim dəyişikliklərinə uyğunlaşmaya yönələn layihələrin həyata keçirilməsində daha geniş istifadə edilir [23].

Göstərilən istiqamətlərdə investisiya qoyuluşlarının artırılmasına ehtiyacın geniş olduğu nəzərə alınmaqla, Azərbaycanda da dövlət-özəl tərəfdaşlığı mexanizminin tətbiqinin açdığı imkanların reallaşdırılması zəruridir. Bununla bağlı, hazırkı şəraitdə aşağıdakı əsas istiqamətləri ayırmaq olar:

*Torpaqların münbitliyinin təmin edilməsi üzrə layihələrin həyata keçirilməsi.* Ölkəmizdə formalaşdırılmış müvafiq qanunvericilik bu istiqamətdə dövlət-özəl əməkdaşlığının həyata keçirilməsi üçün zəmin yaradır. Torpaqların münbitliyi haqqında Azərbaycan Respublikası Qanununa əsasən dövlət torpaqların münbitliyinin təmin olunmasını həmin məqsəd üçün investisiyaların ayrılması və investisiya fəaliyyətinin stimullaşdırılması ilə himayə edir. Dövlət kənd təsərrüfatı yerlərinin (uqodiyalarının), kənd təsərrüfatına az yararlı və yararsız torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsini stimullaşdırır [12].

Gələcəkdə məqsədli proqramlar çərçivəsində dövlət özəl əməkdaşlığı əsasında konservasiya olunmuş əkin torpaqlarının münbitliyinin bərpası üzrə layihələrin hazırlanması və həyata keçirilməsi, əhəmiyyətli dərəcədə deqradasiya olunmuş suvarılan torpaqlarda meliorasiyanın aparılmasına dair layihələrin hazırlanması və həyata keçirilməsi məqsədəuyğundur. Belə layihələr həmçinin deqradasiyaya uğramış otlaqların, örüş sahələrinin münbitliyinin bərpası sahəsində də reallaşdırıla bilər. Bu sahədə özəl sektorun əməkdaşlıq üçün marağının yüksəldilməsi məqsədilə yay və qış otlaqlarının icarə mexanizminin dayanıqlı istifadənin stimullaşdırılması tələblərinə uyğun təkmilləşdirilməsi üzrə tədbirlərin görülməsi məqsədəuyğun hesab edilir. Eyni zamanda, otlaq sahələrinin dayanıqlı istifadəsinə marağın yüksəlməsinə təminat yaratması baxımından Post Sovet məkanında yay və qış otlaq sahələrinin alqı-satqısı mexanizminin tətbiqi təcrübəsindən istifadə imkanlarına baxıla bilər.

*Suvarma infrastrukturunun modernləşdirilməsi və idarə edilməsi.* Bu istiqamətdə dövlət-özəl əməkdaşlığı müasir dünya praktikasında istər yeni suvarma sistemlərinin yaradılması və istərsə də mövcud sistemlərin genişləndirilməsi və dayanıqlı inkişaf tələbləri nəzərə alınmaqla modernləşdirilməsi, eləcə də irriqasiya sistemlərinin idarə edilməsi layihələri çərçivəsində reallaşdırılır. Ölkəmizdə qəbul olunmuş Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiyaya dövlət-özəl tərəfdaşlığının tətbiqi və inkişaf etdirilməsinə dair tədbir daxil edilmişdir. Strategiyaya görə 2024-2027-ci illərdə dövlət-özəl tərəfdaşlığı çərçivəsində su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində 1 pilot layihənin icrasına başlanılacaqdır [11]. Eyni zamanda, qeyd etmək lazımdır ki, gələcəkdə bu sahədə mövcud olan potensial imkanlardan tam istifadə etmək üçün müvafiq dünya təcrübəsinə uyğun daha əhatəli tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

*Aqrar sahədə dayanıqlı inkişaf üzrə tədqiqatların aparılması və innovativ texnologiyaların tətbiqi.* Kənd təsərrüfatında dayanıqlı inkişafın təmin edilməsi ilə bağlı dövlət-özəl tərəfdaşlığı çərçivəsində tədqiqatların aparılması bu sahədə irəliləyişlərin təmin edilməsi baxımından əhəmiyyətli potensiala malikdir. Bununla əlaqədar İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının tərəfindən də həmin istiqamətdə tədbirlərin dəstəklənməsi siyasətinin həyata keçirilməsi tövsiyə olunur. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində elmi tədqiqat işlərinin aparılmasının dövlət büdcəsindən və büdcədənkənar vəsaitlər hesabına maliyyələşdirilməsinə imkan verməklə [17] əslində bu sahədə dövlət-özəl tərəfdaşlığının

tətbiqinə yol açır. Həmin istiqamətdə müasir şəraitdə KTT-nin minimum və sıfır işlənilməsi texnologiyasının tətbiqi imkanlarının və ümumi səmərəliliyinin müəyyən olunmasına, habelə dəqiq əkinçilik metodlarının tətbiqinə dair tədqiqatların aparılması və müvafiq tövsiyələrin hazırlanması məqsədəmüvafiq hesab edilir.

Dayanıqlı inkişaf üçün özəl investisiyaların cəlb edilməsinin dövlət tərəfindən stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi də mühüm rola malikdir. Azərbaycanda kənd təsərrüfatı istehsalçılarına şaxəli dövlət köməyi qurulmuşdur. Bu sistem çərçivəsində istehsalçılar üçün subsidiya mexanizmi vasitəsilə sahəyə investisiya qoyuluşları müstəqim və dolayı formalarda stimullaşdırılır ***(Cədvəl 2)***.

**Cədvəl 2. Kənd təsərrüfatının dayanıqlı inkişafına investisiya qoyuluşlarının subsidiya mexanizmləri ilə stimullaşdırılması**

| Stimullaşdırmanın forması | Stimullaşdırma vasitələri | Stimullaşdırma alətləri |
|---|---|---|
| **Müstəqim** | İnvestisiya yardımları və güzəştlər | İnvestisiyaların maliyyələşdirilməsinə dövlət güzəştləri;<br>Faizsiz kreditlər;<br>Aşağı faizli kreditlər |
| **Dolayı** | Birbaşa subsidiyalar | Dayanıqlı investisiya qoyulduğu sahələrə daha yüksək əkin və məhsul subsidiyalarının tətbiqi |

***Mənbə:*** müəllif tərəfindən hazırlanmışdır.

Birbaşa stimullaşdırma investisiya yardımları və güzəştləri ilə həyata keçirilir Hazırda bunlar müasir suvarma sistemlərinin alınması, tarlaqoruyucu zolaqların salınması və damazlıq heyvanların alınması üçün tətbiq olunur.

Dayanıqlı inkişaf məqsədləri üçün investisiyaların dolayı stimullaşdırılması istehsalçılara verilən subsidiyalar vasitəsilə həyata keçirilir. Bu istiqamətdə

**su qılığı**

:

a) müəyyən bitkilər üzrə müasir suvarma sistemləri quraşdırılmış sahələr üçün daha yüksək əkin subsidiyaları verilir və bu halda işğaldan azad olunmuş ərazilər üçün digər ərazilərlə müqayisədə xeyli yüksək əmsallar müəyyən edilir.

b) damcı suvarma sistemi ilə təmin edilmiş meyvə və giləmeyvə bağlarına (nar, qarağat və s) işğaldan azad edilmiş ərazilər üçün daha yüksək əmsallar müəyyən edilir.

c) müasir suvarma sistemləri quraşdırılmış sahələrdə yetişdirilən bitkilər (pambıq) üçün nisbətən yüksək məhsul subsidiyaları verilir

Dolayı stimullaşdırma vasitələri və alətləri birbaşa stimullaşdırma vasitələri ilə həyata keçirilən investisiyaların konkret sahələr, məhsullar və ərazilər üzrə yönləndirilməsinə xidmət edir. Dayanıqlı inkişaf üçün investisiyaların stimullaşdırılmasında birbaşa və dolayı formaların uzlaşdırılması,

həmçinin müasir texnologiyaların tətbiqini təmin etməklə, məhsuldarlığın artırılmasına və məhsulun keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına imkanları genişləndirir.

Eyni zamanda, dayanıqlı inkişafın təmin olunmasına özəl investisiyaların cəlb edilməsinin təsirli stimullaşdırılması baxımından müstəqim kömək alətlərinin tətbiqinin daha da təkmilləşdirilməsinə ehtiyac vardır. İlk növbədə qeyd etmək lazımdır ki, hazırda müasir suvarma sistemlərinin tətbiqinə investisiya qoyuluşlarının stimullaşdırılması digər kənd təsərrüfatı texnikası növləri ilə eyni şərtlər üzrə aparılır. Bununla yanaşı, iqlim dəyişiklikləri şəraitində, xüsusilə su qıtlığının güclənməsi nəzərə alınmaqla, kənd təsərrüfatında dayanıqlı inkişaf tələblərinə əməl edilməsi zəruriliyi ilə bağlı, suvarma texnikasının əldə edilməsinə investisiya qoyuluşlarının daha güclü dəstəklənməsi məsələsinə baxıla bilər. Qeyd edək ki, su resurslarının qıt olduğu ölkələrdə belə təcrübə mövcuddur. Məsələn, Tunisdə fermerlərin irriqasiya avadanlıqlarının alınmasına dövlət köməyinin səviyyəsi kənd təsərrüfatı texnikasının alınmasından 2 dəfə (müvafiq olaraq 50% və 25%) yüksəkdir [24].

İnvestisiya yardımlarının dayanıqlı inkişaf məqsədlərinə yönəlməsinin gücləndirilməsi baxımından digər mühüm məsələ yanacaq sərfində qənaətcil olan kənd təsərrüfatı maşınlarının alınmasına daha yüksək köməyin tətbiq edilməsidir. Bununla bağlı inkişaf edən iqtisadiyyatlarda müsbət nəticələr verən təcrübələr toplanılmışdır [3]. Müvafiq yönümlü tədqiqatlarda göstərildiyi kimi, son dövrlərdə Azərbaycanda aqrar sahədə enerji tutumluğunun nisbətən yüksək səviyyəsi qərarlaşıb və belə vəziyyət əkinçilik və heyvandarlıq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsini ləngidən amillərdən birinə çevrilmişdir [8]. Bununla əlaqədar olaraq, ətraf mühitə, o cümlədən iqlim dəyişmələrinə zərərli təsirlərin azaldılması məqsədilə sözügedən texnikanın alınması üçün istehsalçılara nisbətən yüksək investisiya güzəştlərinin tətbiqi məqsədəuyğundur.

Hazırda tətbiq olunan tarlaqoruyucu zolaqlara 1000 AZN subsidiya verilməsi (1 hektara minimum 1500 ədəd tingin əkildiyi halda) qaydası həmin zolaqların salınması əsasında torpaqların qorunmasının yaxşılaşdırılması baxımından əhəmiyyətlidir. Eyni zamanda, kənd təsərrüfatı torpaqlarının eroziyasının qarşısının alınması məqsədilə sözügedən zolaqların zəruri miqyaslarda genişləndirilməsinə ehtiyac vardır. Bu istiqamətdə fəaliyyətin daha təsirli stimullaşdırıması ilə bağlı bu sahədə də meyvə bağlarının salınması təcrübəsində tətbiq olunan birdəfəlik yardımların verilməsi məqsədəuyğundur.

Müasir dünya təcrübələri də nəzərə alınmaqla, Azərbaycanın kənd təsərrüfatında dayanıqlı inkişafın investisiya mexanizmlərinin gələcək inkişafı ölkədə dayanıqlı intensivləşdirmənin və maliyyə bazarlarının genişlənməsinin gedişi ilə bağlı olacaqdır. Hazırkı şəraitdə Azərbaycanda aqrar istehsalın intensivləşdirilməsi gedişində istifadə olunan resursların ekstensiv genişləndirilməsi davam edir. Bu halda ətraf mühitə zərərli təsirləri olan giriş resurslarının, o cümlədən mineral gübrələrin, pestisidlərin, yanacağın sərfi artır. Eyni zamanda, dayanıqlı inkişaf çağırışları qarşıdakı dövrlərdə sözügedən artımların templərinin aşağı salınması və daha sonra isə dayandırılması vəzifələrini irəli sürür. Həmin vəzifələrin həlli istiqamətində yuxarıda göstərdiyimiz dayanıqlı istehsal metodlarının tətbiqinə zəruri həcmlərdə əsaslı vəsait qoyuluşlarının stimullaşdırılması önəmliyini saxlayacaqdır. Bununla yanaşı, inkişaf etmiş iqtisadiyyatlarda hazırda aqrar sahəyə digər istiqamətlərdə investisiya qoyuluşlarının yönəldilməsi özlüyündə resursların dayanıqlı istifadəsinin stimullaşdırılması vasitəsi kimi istifadə edilir. Belə ki, son dövrlərdə Avropa İttifaqına daxil olan ölkələrdə fermerlər tərəfindən kimyəvi maddələrin istifadəsinin azaldılmasına yönəldilən təsərrüfatdaxili investisiya yatırımlarına daha güclü kömək göstərilməsi və ya bunun kənd yerlərinin inkişafı proqramları (R&D) çərçivəsində

investisiyalara köməyin şərti kimi qəbul edilməsi praktikaları tətbiq olunur. Qeyd edilən təcrübənin gələcəkdə ölkəmizdə tətbiqi məsələsinə baxıla bilər.

Perspektivdə ölkəmizin kənd təsərrüfatının dayanıqlı inkişafı məqsədləri üçün investisiyaların cəlb edilməsində maliyyə bazarlarının genişlənməsi gedişində yaranan imkanlardan istifadə edilə bilər. Bu istiqamətdə ilk növbədə ABŞ-da toplanılmış təcrübə diqqəti cəlb edir. Həmin ölkədə smart-iqlim (iqlimə uyğun) kənd təsərrüfatına keçidin kapitallaşması üçün xüsusi mexanizmlər yaradılır, o cümlədən vəsaitin maliyyə dəyər zəncirindən kənd təsərrüfatı dəyər zəncirinə ötürülməsi məqsədilə müvafiq yönümlü layihələrin reallaşdırılması üçün "yaşıl səhmlər" buraxılışı və yerləşdirilməsi təmin olunur [22]. Belə yanaşma aqrar sektorda dayanıqlı inkişafın investisiya resursları ilə təminatının yaxşılaşdırılmasında əhəmiyyətli rol oynamaq potensialına malikdir.

**Nəticə**

Aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsinin həlledici şərtlərindən birini müvafiq istiqamətdə zəruri həcmlərdə investisiya qoyuluşlarının həyata keçirilməsi təşkil edir.

Müasir şəraitdə dayanıqlı inkişaf hədəflərinin prioritetliyi nəzərə alınmaqla, investisiyaların həmin istiqamətlərə yönəldilməsinin effektiv mexanizmlərinin formalaşdırılması ön plana keçir. Bu tələbə uyğun olaraq, Azərbaycan Respublikasının kənd təsərrüfatında:

- investisiya qoyuluşları əsasında torpaq və su resurslarının dayanıqlı istifadəsi məsələlərinin kompleksli həllinin təmin olunması məqsədilə bu sahədə proqram-məqsədli idarəetmənin daha da təkmilləşdirilməsi;
- dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılmasına investisiya cəlbinin artırılması üçün dövlət-özəl tərəfdaşlığı mexanizminin tətbiqinin genişləndirilməsi;
- investisiyaların stimullaşdırılmasının dayanıqlı inkişaf və iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması problemlərinin həllində daha təsirli vasitəyə çevrilməsi ilə bağlı tədbirlərin reallaşdırılması məqsədəuyğun hesab edilir.

Kənd təsərrüfatında dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılmasına özəl investisiyaların cəlbinin stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi ilə bağlı digər ölkələrin və regionların müvafiq təcrübələrinin ətraflı təhlilinə ehtiyac vardır. Həmin istiqamətdə Avropa İttifaqında kimyəvi maddələrin və enerji istehlakının ixtisar olunmasına yönəldilən təsərrüfatdaxili investisiyaların yatırılmasına, ABŞ-da fermerlərə bərpa olunan enerji istehsalı sistemlərinin alınması və belə enerjidən istifadənin səmərəliliyini yüksəldən sistemlərin alınmasına kömək mexanizmləri diqqəti cəlb edir.

**Ədəbiyyat**

1. Aqrar subsidiya şurası 2026-cı il üzrə subsidiya cədvəli /https://www.akia.gov.az/az/content/255-281.html
2. AR DSK. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq/ https://www.stat.gov.az/source/agriculture/
3. AR DSK Ətraf mühitin mühafizəsi/https://www.stat.gov.az/source/environment/

4. Azərbaycan Respublikası Prezidentinin Bakı 21 oktyabr 2004-cü il tarixli 462 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" https://e-qanun.az/framework/5796
5. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" https://e-qanun.az/framework/41320
6. BMT. Dayanıqlı inkişaf məqsədləri https://azerbaijan.un.org/az/sdgs
7. Ekoloji təmiz kənd təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu https://faolex.fao.org/docs/pdf/aze82522.pdf
8. Xəlilov H.A. Kənd təsərrüfatında enerji istehlakı: səmərəlilik və dayanıqlılıq kontekstlərində baxış/ Kənd təsərrüfatının iqtisadiyyatı elmi-praktiki jurnal 2020, № 4 (34)
9. Qasımlı Vusal və b. Yaşıl iqtisadiyyat. Bakı- 2022, "Azprint" nəşriyyatı 280 səh. ( səh 232)
10. Quliyev E.Ə. Azərbaycanda "yaşıl" kənd təsərrüfatına keçidin sürətləndirilməsi imkanları/ Kənd təsərrüfatının iqtisadiyyatı elmi-praktiki jurnal 2024, № 1 (45)
11. Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya / https://e-qanun.az/framework/58119
12. Torpaqların münbitliyi haqqında Azərbaycan Respublikasının Qanunu/ https://e-qanun.az/framework/502
13. Vəliyev A.H. Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi-iqtisadi aspektləri. Bakı, 2019, 386 s.
14. Analysis of investment efficiency in the agricultural sector of ukraine on the basis of sustainable development tetiana shmatkovska, Tetiana Kulinich, Mykola Dziamulych, Svitlana Rogach, Andrii Bilochenko, Olena Serdiukova /Scientific Papers Series Management, Economic Engineering in Agriculture and Rural Development Vol. 22, Issue 3, 2022https://www.cabidigitallibrary.org/doi/pdf/10.5555/20220537891
**15.** Azerbaijan: Transitioning to Efficient Water Sector Institutions and Programs for Addressing Water Security Challenges August 2024 https://documents.worldbank.org/en/publication/documents-reports/documentdetail/099082024072036955/p1789061d406a00d1a5c81136fd544a839
16. FAO Agricultural investments and capital stock 2012-2022 Global and regional trends https://www.fao.org/statistics/highlights-archive/highlights-detail/agricultural-investments-and-capital-stock.-global-and-regional-trends-(2012-2022)/en
17. *FAO (2012) Energy-Smart Food at FAO: An Overview https://www.fao.org/4/an913e/an913e00.htm*
18. FAOSTAT. **Greenhouse gas emissions from agrifood systems. Global, regional and country trends 2010-2023** https://www.fao.org/faostat/en/#data/GT
19. How to Develop Sustainable Irrigation Projects with Private Sector Participation https://openknowledge.worldbank.org/entities/publication/86806e3b-9d7f-5a53-a224-628a4e90f71c;
20. Investing in sustainable food systems: A methodology and lessons learned from Africa https://ecdpm.org/work/investing-sustainable-food-systems-methodology-and-lessons-learned-africa

21. OECD. Policy Framework for Investment in Agriculture https://www.oecd-ilibrary.org/docserver/9789264212725en.pdf?expires=1727349201&id=id&accname=guest&checksum=A902B73A34D7E2EBCD00445C1A6C38C1
22. Transformative Investment in Climate-Smart Agriculture
23. Unlocking the potential of our soils to help the U.S. achieve a net-zero economy February 2021 https://usfarmersandranchers.org/wp-content/uploads/2021/02/USFRA-Transformative-Investment-Report.pdf
24. Unlocking the Irrigation Potential in Sub-Saharan Africa: Are PPPs the Way Forward? – World Bank https://ppp.worldbank.org/library/unlocking-irrigation-potential-sub-saharan-africa-are-public-private-partnerships-way-forward
25. ЕЭК Анализ мировых тенденций государственной поддержки сельского хозяйства https://eec.eaeunion.org/upload/medialibrary/523/Analiz-mirovykh-tendentsiy-gospodderzhki-skh.pdf
26. Модернизация в сельском хозяйстве: повышение энергетической эффективности/ http://agropraktik.ru/blog/energo_effekt/496.html#cut
27. Сейфаддинов С.Ш. Повышение эффективности использования пастбищ/ Agricultural Economics "Kənd təsərrüfatının iqtisadiyyatı" Экономика сельского хозяйства - 2022, № 1 (39)

M.A. Hajiyev
*Ph.D. student* of the Agricultural Research Center

## Investment mechanisms for supporting sustainable development in agriculture

*Abstract*

*In modern conditions, solving the issues of sustainable development of agriculture is one of the priority goals of investments in this sector. The article considers the goals and main directions of supporting sustainable development through investments. Issues of improving mechanisms for attracting investments for sustainable development purposes are discussed. Recommendations are put forward on how to effectively direct investments to the implementation of measures related to the efficient use of land and water resources in the agricultural sector and the reduction of the harmful effects of climate change.*

***Keywords:*** *agriculture, sustainable development, investment, investment stimulation, stimulation mechanism*

М.А. Гаджиев
*Докторант* Центра аграрных исследований

## Инвестиционные механизмы поддержки устойчивого развития в сельском хозяйстве

*Резюме*

*В современных условиях решение вопросов устойчивого развития сельского хозяйства является одной из приоритетных целей инвестиционных вложений в этом секторе. В статье рассматриваются цели и основные направления поддержки устойчивого развития посредством инвестиций. Обсуждаются вопросы совершенствования механизмов привлечения инвестиций для достижения целей устойчивого развития. Предлагаются рекомендации по эффективному направлению инвестиций на реализацию мер, связанных с эффективным использованием земельных и водных ресурсов в аграрете и снижением негативных последствий изменения климата.*

***Ключевые слова:*** *сельское хозяйство, устойчивое развитие, инвестиции, стимулирование инвестиций, механизм стимулирования*